INSAN HAQLARI

# 'Bayırşəhər' sakinlərindən Ombudsmana tələb: 'Problemi prezident qarşısında qaldırın'

1 dəqiqə öncə




Bayırşəhər sakinləri: 'Elə bil 'ujas' filmindəyik'

"Təzə Pir" məscidinin ətrafı – Bakının "Bayırşəhər" adlanan hissəsində söküntü işləri paytaxtın baş planına uyğun aparılır. Bunu Bakı şəhər İcra Hakimiyyəti İnsan Hüquqları Müvəkkilinin (Ombudsman) sorğusuna cavabında bildirib.

Sakinlər AzadlıqRadiosuna deyirlər ki, evlərinin məcburi sökülməsi ilə bağlı əvvəl də Ombudsman Səbinə Əliyevaya bir neçə dəfə məktub yazıb kömək istəyiblər. Ombudsman onların şikayəti əsasında Bakı şəhər İcra Hakimiyyətinə sorğu göndərib. Sorğuya bu il mayın 22-də cavab gəlib. İcra hakimiyyətinin cavabı sakinlərə də təqdim edilib.

## 800-ə yaxın binanın sökülməsi nəzərdə tutulub

İcra hakimiyyətinin cavabında deyilir: ""Təzə Pir" məscidinin və "Nizami" metrostansiyasının ətrafında yerləşən ərazilərdə XX əsrin əvvəllərində tikilmiş və istismar müddətini başa vurmuş, bərpası səmərəsiz və mümkün olmayan, şəhərin ümumi görkəminə xələl gətirən tikililərin dövlət büdcəsi hesabına satın alınıb sökülməsi, boşaldılmış ərazilərdə istirahət zonalarının yaradılması qərara alınıb".

Sakinlər isə tikililərin istismar müddətini başa vurması və bərpasının mümkünsüzlüyü barədə məktubda yazılanların həqiqətəuyğun olmadığını bildirirlər. "Bayırşəhər"dəki söküntüyə etiraz edənlərdən **Zahidə Əzizova** deyir ki, ərazidə 800-ə yaxın binanın sökülməsi nəzərdə tutulub. O sual edir: **əgər bu qədər tikilinin bərpası səmərəsiz idisə, niyə 2019-cu ildə büdcədən milyonlar xərclənərək ərazidə əsaslı təmir-bərpa işləri aparılırdı?**

Z.Əzizovanın sözlərinə görə, sakinlərin şikayəti əsasında Bakı İnzibati Məhkəməsi Bakı şəhər İcra Hakimiyyətinə sorğu göndərərək əhalinin məcburi köçürülməsinin və söküntü işlərinin qanuniliyini təsdiqləyən sərəncamı tələb edib.

Sorğuya Yasamal rayon İcra Hakimiyyətindən cavab gəlib və orada qeyd olunub ki, "ərazidə aparılan işlərə dair plan-layihələr və yerquruluşu planı rayon icra hakimiyyətində aşkar edilməyib".

**"Dövlətin təsdiqlədiyi plan-layihə yoxdursa, deməli, əhalinin məcburi köçürülməsi və binaların sökülməsi də qanunsuzdur. Anlamaq olmur ki, həm mədəni irsimizə, həm də insanlara qarşı belə bir amansızlıq haradan qaynaqlanır"**, – Z.Əzizova vurğulayıb.

İndi "Bayırşəhər" sakinləri Ombudsmandan həm insan hüquqları, həm də mədəni irsin qorunması baxımından ərazidəki problemin prezident qarşısında qaldırılmasını istəyirlər.

AzadlıqRadiosu məsələ ilə bağlı Ombudsman Aparatından əlavə açıqlama ala bilməyib.

## Xatırlatma

"Bayırşəhər"də söküntü prosesi 2025-ci ilin yayından başlayıb. Ərazidəki əmlak sahiblərinə evlərinin hər kvadratmetrinə görə 2700 manat təklif olunur. Qeyri-yaşayış sahələri üçün isə qiymət hər kvadratmetrə 3000 manatdır.

Sakinlərin bir qismi köçürülüb. Digərləri isə söküntülərə və ya təklif olunan məbləğin azlığına etiraz edərək əmlakını satmaq istəmir.

Narazı sakinlər iddia edir ki, hətta köçənlərin bəziləri kommunal xidmətlərdə yaradılan problemlər və digər təzyiqlərə dözməyərək məcburiyyət qarşısında evlərini satıblar.

Bakı şəhər İcra Hakimiyyəti isə bəyan edib ki, köçürmələr qarşılıqlı razılaşma əsasında həyata keçirilir.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildirilib ki, söküntü ərazisindəki tarixi abidələr qorunacaq, "Təzə Pir" ətrafında sökülən tikililərin yerində isə park salınacaq və Mərkəzi Parka birləşdiriləcək.

## Buna da bax:


Bakıda qurudulan göllər indi problemə çevrilib: 'Söküntü olsa... evsizlər ordusu yaranacaq'

'Papanin'də tikinti aparan şirkətin iş icraçısı həbs olundu: vətəndaşın evini qanunsuz sökdüyünə görə...

'Təzə Pir' ətrafındakı söküntülərlə bağlı məhkəmə qərar verdi: 'Bu nə məntiqdir?'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur